Национальный научный центр
Фармаконадзора
National Pharmacovigilance
Research Center

**Автономная некоммерческая организация
«Национальный научный центр
Фармаконадзора»**

143026, г. Москва, территория ИЦ «Сколково», Большой Бульвар, д.42, стр.1, этаж 0, пом.103, комн.13

Pasiyent üçün yaddaş kitabçası

Bu yaddaş kitabçasını həmişə özünüzlə daşıyın. Müalicəyə başlamazdan əvvəl onu sizi müalicə edən hər bir həkimə və tibbi yardım göstərən digər tibb işçilərinə təqdim edin.

Arovaban

(təyin edilmiş dozanın yanında işarə qoyun)

☐ 15 mq ☐ 20 mq

Mən Arovaban preparatı ilə antikoaqulyant müalicə alıram.

Adı, Soyadı:
Ünvan:
Doğum tarixi:
Bədən çəkisi:
Digər dərmanlar/xəstəliklər:

Təcili vəziyyət yarandıqda, zəhmət olmasa, aşağıdakı məlumatları bildirin:

Həkimin adı, soyadı:
Həkimin telefon nömrəsi:
Həmçinin aşağıdakı məlumatları bildirin:
Adı, Soyadı:
Telefon:
Qohumluq əlaqəsi:

Tibb işçisi üçün məlumat:

- Beynəlxalq normallaşmış nisbət (BNN) göstəricisindən istifadə edilməməlidir, çünki bu göstərici Arovaban preparatının antikoaqulyant aktivliyini ölçmək üçün etibarlı deyil.

Arovaban preparatı haqqında nə bilmək lazımdır?

- Arovaban qan laxtalarının (trombların) əmələ gəlməsinin qarşısını alan antikoaqulyantdır.
- Arovaban preparatını mütəmadi olaraq və müalicə edən həkiminizin onu təyin etdiyi müddət ərzində qəbul edin.
- Müalicə edən həkiminizlə məsləhətləşmədən Arovaban qəbulunu dayandırmayın, çünki bu preparat ciddi fəsadların inkişafının qarşısını alır.
- Digər antikoaqulyantları, məsələn, fraksiyalaşdırılmamış heparin, enoksaparin, dalteparin, fondaparinuks, varfarin, dabiqatran eteksilat, apiksaban və digərlərini qəbul edirsinizsə, bu barədə müalicə edən həkiminizə məlumat verin. Rivaroksabandan və ya rivaroksabana

keçid halları, həmçinin mərkəzi venoz və ya arterial kateterin işləməsini təmin etmək üçün lazım olan dozalarda fraksiyalaşdırılmamış heparinin istifadəsi istisnadır.
- Hər hansı cərrahi müdaxilədən və ya invaziv prosedurdan əvvəl tibb işçilərinə Arovaban qəbul etdiyinizi bildirin.

Nə zaman tibbi yardıma müraciət etmək lazımdır?

Arovaban kimi antikoaqulyantları qəbul edərkən mümkün əlavə təsirlər barədə məlumatlı olmaq vacibdir.

Aşağıdakı əlavə təsirlərdən hər hansı biri baş verərsə, dərhal həkimə xəbər verin:

- Qanaxma
  – Beyində və ya kəllə daxilində qanaxma (beyindaxili və kəllədaxili qanaxma) aşağıdakı simptomlarla müşayiət oluna bilər: baş ağrısı, bədənin bir tərəfində zəiflik, ürəkbulanma, qusma, şüurun bulanıqlaşması, ənsə əzələlərinin sərtliyi. Bu vəziyyət həyat üçün təhlükəlidir və təcili tibbi yardım tələb edir.
  – Uzunmüddətli və ya güclü qanaxma.
  – Qeyri-adi zəiflik, yorğunluq, solğunluq, başgicəllənmə, baş ağrısı, səbəbi bilinməyən şişkinliklər, təngnəfəslik, sinə ağrısı və ya stenokardiya.

Həkiminiz vəziyyətinizi daha diqqətlə izləmək və ya müalicəni dəyişdirmək qərarına gələ bilər.

- Ağır dəri reaksiyası
- Ağır dəri səpgisinin yayılması, qabarcıqların əmələ gəlməsi və ya selikli qişanın, məsələn, ağzın və ya gözlərin zədələnməsi (Stivens-Conson sindromu/toksik epidermal nekroliz).
- Səpgi, hərarətin yüksəlməsi, daxili orqanların iltihabı, qan göstəricilərində dəyişikliklər və sistemik simptomlara səbəb olan dərman reaksiyası (DRESS sindromu). Bu əlamətlər yarandıqda Arovaban qəbulunu dayandırmaq lazımdır. Bunlar çox nadir reaksiyalardır (10 000 nəfərdən ən çox 1-də).
- Ağır allergik reaksiya
- Üzün, dodaqların, ağzın, dilin və ya boğazın şişməsi, udma və nəfəs almaqda çətinlik, arterial təzyiqin kəskin enməsi. Ağır allergik reaksiyalar çox nadir hallarda baş verir (anafilaktik reaksiyalar, o cümlədən anafilaktik şok, 10 000 nəfərdən ən çox 1-də baş verə bilər). Angionevrotik ödem (allergik şişkinlik) 100 nəfərdən ən çox 1-də baş verə bilər.

Arovaban preparatını necə qəbul etmək lazımdır?

Optimal qorunmanı təmin etmək üçün Arovaban aşağıdakı dozada:

- 15 mq yemək zamanı qəbul edilməlidir;
- 20 mq yemək zamanı qəbul edilməlidir.

Национальный научный центр
Фармаконадзора
National Pharmacovigilance
Research Center

**Автономная некоммерческая организация
«Национальный научный центр
Фармаконадзора»**

143026, г. Москва, территория ИЦ «Сколково», Большой Бульвар, д.42, стр.1, этаж 0, пом.103, комн.13

Həmçinin “İzvarino Pharma” MMC-nin istehsal etdiyi Arovaban dərman preparatının istifadəsi zamanı yaranmış əlavə təsirlər (arzuolunmaz reaksiyalar) barədə məlumatı müalicə edən həkiminizə, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi publik hüquqi şəxsinin Farmakonəzarət şöbəsinə (Ünvan: AZ1065, Azərbaycan Respublikası; Bakı şəh., C.Cabbarlı küç.34; Faks: (+99412) 596-07-16; e-mail: adr@pharma.az; Tel.: (+99412) 596-05-20; Qaynar xətt (+99412) 596-07-12) və ya “İzvarino Pharma” MMC-yə təqdim edin: tel.: +7 (495) 232-56-55.

Rusiya Federasiyası
“İzvarino Pharma” MMC
Ünvan: 108817, Moskva şəhəri, Vnukovskoye şossesi 5-ci km (Vnukovskoye qəs.), ev 1, bina 1
Telefon: +7 (495) 232-56-55
Faks: +7 (495) 232-56-54
Elektron poçt: info@izvarino-pharma.ru

Farmakonəzarət üzrə məsul şəxs: Cəfərli Yasəmən

